# Yapon Dili Səviyyə İmtahanı (JLPT) haqqında məlumat

Bu il Yapon dili Səviyyə İmtahanının (JLPT) 6 dekabr, 2020-ci il (bazar günü) tarixində keçirilməsi planlaşdırılır.

Ətraflı məlumat ilə aşağıda tanış ola bilərsiniz.
Əlavə məlumat almaq istəyənlər JLPT İmtahanı Təşkilat Komitəsi ilə əlaqə saxlaya bilərlər:
E-mail: jlptazerbaijan@gmail.com
Facebook URL: https://www.facebook.com/JLPTazerbaijan/

**1. İmtahan üçün müraciət**
İmtahan üçün ərizə vərəqəsini əldə etmək istəyən şəxslərin nəzərinə!
İmtahana müraciət üçün lazım olan ərizə vərəqəsinin qiyməti 1 AZN təşkil edir.

［**Satış müddəti**］ **28.09.2020 – 09.10.2020** bazar ertəsi- cümə (şənbə və bazar istirahət günləridir)
［**Ərizə qəbulu saatları**］ 11:00 15:00
［**Satış məntəqəsi**］ Yaponiyanın Azərbaycandakı Səfirliyi, 5-ci mərtəbə
**Ünvan:** Azərbaycan Respublikası, Bakı şəhəri, İzmir küçəsi 1033, Hyatt Bina III, 5-ci mərtəbə

**2. Müraciət qaydası və lazımı sənədlər**
1) Doldurulmuş ərizə vərəqəsi
2) İki ədəd 3x4 sm fotoşəkil
3) İmtahan üçün ödəniş haqqı

Yuxarıda sadalanan sənədləri hazırlayaraq, aşağıda qeyd olunan ünvana təqdim etməyiniz xahiş olunur. Nəzərinizə çatdırmaq istərdik ki, ödəniş haqqı imtahan səviyyəsinə görə fərqlənir.

N1: 20 AZN
N2: 20 AZN
N3: 15 AZN
N4: 15 AZN
N5: 15 AZN

＊Qeyd 1: dekabr ayında keçiriləcək Yapon Dili Səviyyə İmtahanına xaricdə yaşayan müraciətçilərin müraciəti sərhədlərin bağlı olması səbəbindən hal-hazırda qəbul olunmur. Sərhədlər açıldıqdan sonra xarici vətəndaşlar üçün də sənəd qəbulunun mümkün olub-olmaması haqqında məlumat bildiriləcəkdir.

＊Qeyd 2: Yeni koronavirusun yayılması və ya digər fövqaladə hallar səbəbindən imtahanın ləğv olunması halı baş verə bilər . Bunu öncədən nəzərə almağınızı xahiş edirik.

［**Sənəd qəbulu müddəti**］ 28 sentyabr, 2020-ci il (bazar ertəsi) – 9 oktyabr, 2020-ci il (cümə) tarixinədək (şənbə və bazar istirahət günləridir).
［**Qəbul saatları**］ 11:00-dan 15:00 -dək
**Ünvan:** Azərbaycan Respublikası, Bakı şəhəri, İzmir küçəsi 1033, Hyatt Bina III, Yaponiya Səfirliyi, 5-ci mərtəbə

**3. İmtahan proqramı:**
İmtahan günü: 2020-ci il 6 dekabr (bazar günü)
İmtahan vaxtı: saat 12:00-dan – 16:00-dək
İmtahan yeri: Bakı Dövlət Universiteti
Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi 23